# "Vatican News" portalı Azərbaycan dilində xəbərlər yaymağa başlayıb

**Müqəddəs Taxt-Tacın "Vatican News" portalı əlaqələri, imanı gücləndirmək və dinlərarası dialoqu təşviq etmək məqsədilə aprelin 2-dən etibarən Azərbaycan dilində xəbərlər yaymağa başlayıb.**

AZƏRTAC xəbər verir ki, "Vatican News" Azərbaycan dilini əlavə etməklə çoxdilli xidmətinin əhatə dairəsini genişləndirib. Bu addım Azərbaycana səfər edən ilk Roma Papası olan II İohan Pavelin vəfatının 20-ci ildönümü münasibətilə atılıb. Bununla da, portalın xəbər yaydığı dillərin sayı 56-ya yüksəlib.

Roma Katolik Kilsəsinin Apostol prefekti yepiskop Vladimir Fekete II İohan Pavelin 2002-ci ildə Azərbaycana səfərini xatırladaraq deyib: "2002-ci il mayın 23-də Bakıda söylədiyi moizədə II İohan Pavel vurğulamışdı ki, ölkədəki kiçik katolik icması "maya" olmalı və yol göstərən ruh olmalıdır. Müasir dünyada media həqiqəti yaymaq, dindarların ümid və imanını gücləndirmək üçün getdikcə daha güclü vasitəyə çevrilir".

Vatikanın Kommunikasiya üzrə Dikasteriyası ilə əməkdaşlığın nəticəsi olan bu təşəbbüsü dəstəkləyən yepiskop Vladimir Fekete bildirib: "Azərbaycandakı əksər yerli katoliklər başqa dillərdə danışmırlar və onlar Ümumdünya Kilsəsi haqqında öyrənmək üçün bəzən etibarlı olmayan mənbələrə müraciət etməli olurlar. Bu səbəbdən biz biliyi təşviq etmək və imanı gücləndirmək üçün "Vatican Radio"-"Vatican News" ilə bu layihəni başlamağa qərar verdik. İndi hər kəs Müqəddəs Atanın sözlərini və Ümumdünya Kilsəsində baş verən hadisələr haqqında xəbərləri öz dilində oxuyacaq. Əminəm ki, bu, başqa dinlərin nümayəndələri və ya imanı olmayanlar üçün də dəyərli məlumat mənbəyi olacaq".

O, həmçinin vurğulayıb ki, Azərbaycan dilində təkcə Azərbaycanda deyil, dünyada 30 milyondan çox azərbaycanlı danışır.

Vatikanın Kommunikasiya üzrə Dikasteriyasının prefekti Paolo Ruffini qeyd edib ki, hər bir parça saysız-hesabsız toxunmuş saplardan ibarətdir. Bizim kommunikasiya şəbəkəmiz də buna bənzəyir. Bu gündən etibarən yepiskop Vladimir Fekete və Azərbaycanın Apostol Prefekturası ilə əməkdaşlığın sayəsində həmin şəbəkə Azərbaycan dilində də danışacaq.

"Hər bir dil bizim gündən-günə tikdiyimiz kilsənin canlı binasında mühüm rol oynayır. 2016-cı ilin oktyabrında Bakıya səfəri zamanı Papa Fransisk kiçik azərbaycanlı katolik icmasını tərifləyərək, onu Müqəddəs Ruhun enişini Yuxarı Otaqda toplaşaraq gözləyən ilk şagirdlərlə müqayisə etdi. Azərbaycan dilini "Vatican News"un bir çox dillərinə əlavə etmək - kilsədə heç kimin digərindən böyük və ya kiçik olmadığını nümayiş etdirmək üsulumuzdur.

Vatikan Mediasının baş redaktoru Andrea Tornielli deyib ki, "Vatican News"un Azərbaycan dilində mövcudluğu təkcə Papanın mesajını daha çox insana çatdırmaq üçün bir yol deyil, həm də dinlər arasında dialoqun təşviqi istiqamətində mühüm addımdır. Müharibə və zorakılıqla sarsılan dünyada Peterin Xələfinin sözləri bölünmə və nifrətə təslim olmaqdan imtina edən, bunun əvəzinə görüş, qarşılıqlı anlaşma və qardaşlıq yolları qurmağa çalışan hər kəs üçün körpüdür.

Azərbaycan.- 2025.- 3 aprel (№ 63).- S.11.